

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 28 (23.670)

*11 fevral 2021-ci il, cümə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiymәti 20 qəpik




## Qars müqaviləsindən Naxçıvan dəhlizinə və dünyaya

*Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan diyarı bəşər sivilizasiyasının ilkin başlanğıc nöqtələrindən biri kimi qəbul edilmiş Nuh Peyğəmbərin dünya tufanından sonra dabanını ilk dəfə yerə basdığı qədim torpaqdır...*

*Gəmiqaya zirvəsi – Nuh Peyğəmbərin əfsanəvi gəmisinin qayaya çevrilmiş daş heykəlidir...*

*Naxçıvan – Dədə Qorqud yurdu, Oğuz məskənidir...*

Naxçıvan – Azərbaycanın dövlətçilik tarixində mühüm yeri və rolu olmuş Atabəylər dövlətinin paytaxtı missiyasını şərəflə yerinə yetirmişdir. Səfəvilərin yaratdığı mərkəzləşdirilmiş qüdrətli Azərbaycan dövlətinin əsas dayaq nöqtələrindən biri də Naxçıvan bəylərbəyliyi idi.

Eyni zamanda 1747-ci ildən 1828-ci illəri əhatə edən Naxçıvan xanlığı da Azərbaycanın dövlətçilik tarixinin şərəfli-şanlı səhifələrindən birini təşkil edir. Çar Rusiyasının formalaşdırdığı Naxçıvan mahalı da nəhəng imperiyanın daxilindəki dövlətçilik subyektlərindən biri idi.

1918-1919-cu illərdə fəaliyyət göstərmiş Araz-Türk Respublikası Naxçıvanda Azərbaycan Xalq Cümhuriyyətinin funksiyalarını həyata keçirmiş dövlət qurumu kimi tarixə düşmüşdür.

Bütün bunlarla bərabər, Naxçıvanın Azərbaycanın tərkibində muxtariyyət statusu əldə etməsi və muxtar respublika kimi fəaliyyət göstərməsi bu diyarın çoxəsrlik tarixinin şərəfli hadisəsidir. Muxtariyyət statusu qazanmaq Naxçıvanın qədim Azərbaycan torpağı kimi özünün tarixi yolunu davam və inkişaf etdirməsi və əbədi olaraq Azərbaycanın tərkibində qalmasının ən mühüm səbəblərindən biridir. Eyni zamanda Azərbaycanın üzvi bir parçası kimi Naxçıvan Muxtar Respublikasının yaranması ilə Ermənistanın bu qədim Azərbaycan torpağı haqqındakı iddialarının qarşısına dəmir sədd çəkilmişdir.

Naxçıvanda Azərbaycana bağlı muxtar respublikanın təşkil olunması tarixi zərurətdən yaranmışdır. Rusiya bolşevik hökumətinin köməyi ilə 1919-1920-ci illərdə ermənilərin Zəngəzuru işğal etməsi ilə Naxçıvan diyarının Azərbaycandan ayrı salınması Naxçıvan ərazisində muxtar bir dövlət qurumu yaradılmasını doğuran əsas zəruri şərtlərdən birincisidir. Rusiya Sovet Federativ dövlətinin Qırmızı ordunun iştirakı ilə Naxçıvan ərazisini işğal etdikdən sonra burada müstəqil bir Naxçıvan Sovet Sosialist Respublikası yaradıldığını elan etməsi, əslində, həmin torpaqları bir az sonra Ermənistana vermək planlarının başlanğıcı idi. Ermənistan Sovet Respublikasının Naxçıvana dair ərazi iddiaları da bu qədim Azərbaycan torpaqlarında muxtar bir dövlət qurumunun formalaşdırılması zərurətini doğurmuşdur.

Azərbaycan tarixinin bütün dövrlərində Naxçıvan həmişə doğma ana Vətənin ayrılmaz tərkib hissələrindən biri olmuşdur. Bununla belə, Naxçıvanın Azərbaycana bağlı muxtar bir qurum kimi yaşadılmasının əsası Araz-Türk Respublikası ilə qoyulmuşdur. Məhz Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyət göstərdiyi məsuliyyətli bir dövrdə Əmir bəy Nərimanbəyovun başçılıq etdiyi Araz-Türk Respublikası Naxçıvanın müdafiəsini yaratmış, ermənilər tərəfindən işğal edilməsinin qarşısını almışdır. Azərbaycan Xalq Cümhuriyyətinin rəhbərləri Araz-Türk Respublikası hökuməti rəsmilərinin başçılığı ilə Naxçıvanda ermənilərin ərazi iddialarına, hərbi müdaxilələrinə qarşı aparılan qətiyyətli mübarizəni yüksək qiymətləndirmişlər.

Naxçıvanın Azərbaycanın tərkibində muxtar qurum kimi yaradılmasının zəruri olmasında Behbud ağa Şahtaxtinskinin təşviqi ilə 1921-ci ilin yanvar ayında keçirilmiş referendum müstəsna dərəcədə mühüm rol oynamışdır. Belə ki, vahid sovet ailəsi kimi ümumi beynəlmiləlçi mövqeni bəhanə olaraq əsas götürmüş gənc Azərbaycan sovet hakimiyyətində Naxçıvan ərazisinin Ermənistan Sovet Respublikasına verilməsinə dair təşəbbüslər olmuşdur. Bu məkrli işin təşkilatçıları olan Azərbaycan Sovet Respublikasının yüksək rəhbər orqanlarında məsul vəzifə tutmuş Anastas Mikoyan və Levon Mirzoyan kimi daşnak-bolşeviklər Rusiya Federasiyasının dəstəyini alaraq Ermənistanda yeni bir sosialist respublikasını qurmaq üçün Naxçıvanın həmin bolşevik hökumətinə verilməsini həyata keçirməyə çalışmışlar. Düşünülmüş şəkildə siyasi mühitə diktə edilmiş "Naxçıvan və Şərursuz Ermənistan yaşaya bilməz" – tezisindən Naxçıvanın Ermənistana verilməsinin əsaslandırılması üçün bəhanə kimi istifadə olunmuşdur.

Bu təhlükəli işin reallaşacağını görən Azərbaycan İnqilab Komitəsinin üzvü və Xalq Ədliyyə komissarı Behbud ağa Şahtaxtinski heç bir icazə və razılıq almadan, müzakirə açmadan Naxçıvana gələrək burada əhali arasında Naxçıvanın Ermənistana verilməsi ideyasının əleyhinə və Azərbaycanın tərkibində qalması uğrunda mübarizə edilməsi üçün təbliğat işləri aparmışdır. Yerli əhalini Naxçıvanın Azərbaycana məxsus ərazi kimi saxlanılması üçün referendum tələbi ilə çıxış etməyə təşviq etməsi və buna nail olması Behbud ağa Şahtaxtinskinin Naxçıvanı qoruyub saxlamaq sahəsindəki və sonralar burada muxtar respublikanın yaradılması yollarındakı müstəsna xidmətidir.

1921-ci ilin yanvar ayında Naxçıvanda keçirilmiş referendum zamanı əhalinin 90 faizi Azərbaycanın tərkibində yaşamaq müddəasına səs vermişdir. Bu, Azərbaycan tarixində ölkənin ərazi bütövlüyünün qorunub saxlanılması üçün XX əsrin əvvəllərində həyata keçirilmiş mühüm tarixi hadisədir. Bundan başqa, Behbud ağa Şahtaxtinskinin 1920-1921-ci illərdə RSFSR Xalq Komissarlar Sovetinin sədri Vladimir Leninə göndərdiyi məktublarda Naxçıvanın Azərbaycanın tərkibində qalmasının əsaslandırılmış şəkildə şərh edilməsi də Kreml rəhbərliyində bu məsələyə ehtiyatla yanaşılmasına şərait yaratmışdır.

Nəhayət, Behbud ağa Şahtaxtinskinin yaxından və fəal iştirakı ilə 16 mart 1921-ci ildə Rusiya Federasiyası ilə Türkiyə Cümhuriyyəti arasında imzalanmış Moskva müqaviləsində Naxçıvanın Azərbaycanın tərkibində muxtar respublika kimi saxlanması haqqında müddəanın özünə yer alması ilə bu məsələ arxa plana keçirilmişdir. Az sonra, yəni 13 oktyabr 1921-ci ildə Rusiya Federasiyasının iştirakı ilə Türkiyə Cümhuriyyəti, Azərbaycan, Gürcüstan və Ermənistan Respublikaları arasında imzalanmış məşhur Qars müqaviləsi ilə Naxçıvan ərazisinin Azərbaycanın tərkibində Naxçıvan Muxtar Respublikası statusunda fəaliyyət göstərməsi məsələsi birdəfəlik həll olunmuşdur. Hətta Qars müqaviləsində Naxçıvan Muxtar Respublikasına hər hansı bir başqa dövlət tərəfindən müdaxilə edilərsə, Türkiyə Cümhuriyyətinin onu himayə etməsinə dair xüsusi bir müddəanın daxil edilməsi bu anlaşmanın tarixi-siyasi əhəmiyyətini daha da qüvvətləndirmişdir.

Bütün bunlara görə 1921-ci ilin Qars müqaviləsi Azərbaycanın cənub-qərb sərhədlərində ərazi bütövlüyünü qoruyub saxlaması və Naxçıvana muxtariyyət verilməsi baxımından böyük tarixi əhəmiyyətə malik olan siyasi hadisədir. Qars müqaviləsi ilə Ermənistanın Şərqi Anadoluda və Naxçıvanda ərazi iddialarına son qoyulmuş, Zaqafqaziya respublikaları arasında Ermənistanın yaratdığı gərginlik, separatçılıq fəaliyyəti dayandırılmışdır.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev Türkiyə Cümhuriyyətinin Qars şəhərində imzalanmış beynəlxalq statusa malik müqaviləyə yüksək qiymət vermiş, Qars müqaviləsinin müddəalarına əsasən Naxçıvana Azərbaycanın tərkibində muxtariyyət verilməsini tarixi nailiyyət adlandırmışdır. Hətta XX əsrin sonlarına yaxın Ermənistan tərəfi yenidən Naxçıvan Muxtar Respublikasına hərbi təcavüz edərkən və ərazi iddiaları irəli sürərkən görkəmli dövlət xadimi Heydər Əliyev 24 mart 1992-ci il tarixdə Türkiyə Cümhuriyyətinin rəhbərləri ilə Ankaradakı tarixi görüşü zamanı Qars müqaviləsinin müddəalarını yada salmaqla beynəlxalq ictimaiyyəti mövcud reallıq haqqında məlumatlandırmış, Ermənistan tərəfini bir daha susmağa məcbur etmişdir.

Beləliklə, 1922-ci ildə çağırılmış Zaqafqaziya Sovetlər Qurultayında Azərbaycan Sovet Sosialist Respublikasının tərkibində Naxçıvanın muxtar respublika kimi fəaliyyət göstərməsi elan olunmuşdur. Bu vaxtdan etibarən Rusiya Federasiyası rəhbərliyinin Ermənistanın xeyrinə yaratdığı müstəqil Naxçıvan Sovet Sosialist Respublikası ləğv edilmişdir. Buna baxmayaraq, 1922-1923-cü illərdə siyasi-inzibati idarəetmə quruluşu kimi burada respublika deyil, Naxçıvan Diyar Komitəsi formatında qurum fəaliyyət göstərmişdir.

Nəhayət, Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin 1923-cü il 5 dekabr tarixli Qərarında Naxçıvan Diyar Komitəsinin Naxçıvan Muxtar Sovet Sosialist Respublikasına çevrilməsi məsələsi özünün qəti həllini tapmışdır. Bütün bunlardan sonra Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin 9 fevral 1924-cü il tarixli dekreti ilə Naxçıvan ölkəsinin Azərbaycanın protektorluğunda Naxçıvan Muxtar Sovet Sosialist Respublikası statusunda fəaliyyətə başlaması rəsmiləşdirilmişdir. Ümum-Naxçıvan Sovetlər Qurultayının 18 aprel 1926-cı il tarixdə çağırılmış iclasında qəbul olunmuş Naxçıvan Muxtar Respublikasının birinci Konstitusiyasının xüsusi bir maddəsi ilə "Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının Azərbaycan Sovet Sosialist Respublikasının protektorluğunda olmaqla onun tərkib hissəsi olması" hüquqi cəhətdən də təsdiq olunmuşdur. Beləliklə, uzun və çətin bir mübarizədən sonra Azərbaycan Respublikasının tərkibində Naxçıvan Muxtar Respublikasının yaradılması işi başa çatdırılmışdır.

Naxçıvan Muxtar Respublikası Azərbaycanın tərkibində coğrafi prinsiplər əsasında yaradılmış muxtar qurumdur. Qeyd olunduğu kimi, Naxçıvanın muxtariyyət ideyası RSFSR rəhbərliyi tərəfindən Zəngəzurun Ermənistana verilməsi ilə bu torpaqların Azərbaycan Sovet Respublikasının ərazisindən ayrı salınmasından doğan zərurət əsasında meydana gəlmişdir. İkincisi, Naxçıvana muxtariyyət statusu verilərkən onun ərazisinin coğrafi baxımdan bir neçə dövlətlə: Türkiyə Cümhuriyyəti, İran və Ermənistanla sərhəd olması məsələsi də nəzərə alınmışdır. Beynəlxalq əhəmiyyətə malik olan 1921-ci il Moskva və Qars müqavilələrində Naxçıvanın muxtar qurum kimi statusu siyasi cəhətdən də əsaslandırılmışdır.

Sovet hakimiyyəti illərində Naxçıvan Muxtar Sovet Sosialist Respublikası Azərbaycan Sovet Sosialist Respublikasının tərkibində şərəfli və məsuliyyətli bir yol keçmişdir. Bütün təqiblərə və ideoloji təzyiqlərə baxmayaraq, Azərbaycanın hər yerində olduğu kimi, Naxçıvanda da savadsızlığın ləğv edilərək məcburi orta təhsilin həyata keçirilməsi, aqrar sahə ilə yanaşı, sənaye sektorunun da formalaşdırılması, maarif və mədəniyyət sahələrində müəyyən dirçəlişə nail olunması sovet dövrünün mühüm nailiyyətlərindən hesab oluna bilər.

Bununla belə, XX əsrin 50-60-cı illərində Ermənistan yenidən Naxçıvan Muxtar Respublikasına qarşı ərazi iddialarını davam etdirmişdir. Ermənilər Sovet İttifaqının rəhbərliyində Nikita Xruşşovla Anastas Mikoyanın münasibətlərindən istifadə edərək, Naxçıvanın Ermənistan SSR-in tərkibinə daxil edilməsinə nail olmağa çalışmışlar. Naxçıvan torpağının yetirmələri olan görkəmli Azərbaycan ziyalıları mərkəzin bu sahədəki qeyri-qanuni planlarının həyata keçirilməməsi üçün açıq və ciddi mübarizə aparmışlar. Böyük vətəndaş-alim Abbas Zamanov 1957-ci ildə Azərbaycan Elmlər Akademiyasında keçirilmiş məsul bir yığıncaqda mərkəzi hökumətin Naxçıvanın Ermənistana verilməsi siyasətini açıq şəkildə tənqid etmişdir. Siyasi xarakter daşıyan bu addımına görə Abbas Zamanov Azərbaycan Dövlət Universitetinin müəllimi vəzifəsindən azad edilmiş, kommunist partiyası sıralarından çıxarılmışdır.

Bundan başqa, XX əsrin 60-70-ci illərində Naxçıvanda muxtar respublikanın təşkili uğrunda mübarizədə mühüm xidmətləri olmuş qırmızı taborçuların müdafiə edilməsi, İrəvan şəhərinin süni şəkildə uydurulmuş erməni şəhəri kimi 2750 illiyinin, erməni quldur cəlladı Andronikin 100 illiyinin Ermənistanda qeyd olunmasının əleyhinə apardıqları mübarizə də, nəticə etibarilə, Ermənistanın və onların sovet hökuməti rəhbərliyindəki havadarlarının susdurulmasına xidmət edirdi.

Naxçıvan MSSR Ali Sovetinin katibi, tarix elmləri namizədi Əli Əliyevin 1 mart 1966-cı il tarixdə Sovet İttifaqı KP MK-nın ideologiya şöbəsinə ünvanladığı etiraz məktubundakı aşağıdakı mətləblər, nəticə etibarilə, Ermənistanın davam etməkdə olan qanunsuz hərəkətlərinə qarşı səsləndirilmiş ittihamlardan ibarətdir: "İzvestiya" qəzetinin 16 yanvar 1966-cı il tarixli nömrəsinin "Sonuncu gün" bölməsində Marietta Şaqinyanın "Volqa" ilə Fransada dolaşarkən" şərlövhəli məqaləsi verilmişdir. Məqalə müəllifi Andronikin Parisin "Per-Laşez" məzarlığındakı heykəlini Yerevan şəhərində David Sasunskiyə qoyulmuş abidə ilə müqayisə edir.

Hamıya məlum olduğu kimi, Andronik təpədən-dırnağa qədər bolşevizmin düşməni, əks-inqilabi "Daşnaksutyun" partiyasının sayılıb-seçilən üzvü olmuşdur. ...Andronik İran-türk cəbhəsindən geri çəkilərkən 1918-ci ilin iyun-iyul aylarında Naxçıvan diyarında dinc əhalini didərgin salıb, qırıb-çatıb, talan edibdir. O, qadınları, uşaqları və qocaları da odlara yaxıb, qılıncdan keçiribdir.

Salınmış qanlı nifaq, Andronik tərəfindən 1918-ci ildə diyarın dinc əhalisinə qarşı törədilmiş fiziki cəhətdən məhvetmə halları haqqında mən bu ilin 28 yanvarında yazdığım məktubla "İzvestiya" qəzetinin redaksiyasını

*Ardı 2-ci səhifədə*

və Marietta Şaqinyanı məlumatlandırmışam. Lakin indiyə kimi onlardan heç bir cavab almamışam. Çox-çox təəssüf edirəm ki, əks-inqilabçı Andronikin mədh edilməsinə qarşı mənim bu etirazıma dair heç bir izahat verilməmişdir”.

Yalnız görkəmli dövlət xadimi Heydər Əliyev 14 iyul 1969-cu ildən Azərbaycan Respublikasına rəhbərlik etdikdən sonra ölkəmizin digər regionlarından torpaqların itirilməsi prosesi tam dayandırıldığı kimi, Naxçıvan Muxtar Respublikasının da başının üstündən duman çəkilmişdir.

Sovet İttifaqının dağılması ərəfəsində, 1990-cı ilin yanvar ayında Azərbaycanı yenidən bürümüş erməni-bolşevik təcavüzünə və regiona olan hərbi müdaxilələrə cavab olaraq Naxçıvan Muxtar Respublikasının SSRİ-nin tərkibindən çıxması haqqında Ali Sovetin qəbul etdiyi qərar beynəlxalq aləmdə böyük əks-səda doğurmuşdur. Və Sovet İttifaqı rəhbərliyindən məqsədli şəkildə uzaqlaşdırıldıqdan sonra taleyin hökmü ilə Naxçıvanda yaşayıb fəaliyyət göstərən ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvanın muxtariyyət statusu məsələsinə yenidən baxılmış, nəhayət, sosialist idarəetmə forması bu dövlət idarəçiliyi qurumunun üzərindən götürülmüşdür.

Naxçıvan MSSR Ali Sovetinin 17 noyabr 1990-cı il tarixli sessiyasında Azərbaycan SSR-in və Naxçıvan MSSR-in deputatı Heydər Əliyevin təşəbbüsü ilə bu regional dövlət qurumunun adından “sovet sosialist” sözləri çıxarılmış, Ali Sovetin adı dəyişdirilərək Ali Məclis adlandırılmışdır. Eyni zamanda həmin tarixi sessiyada Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağının dövlət rəmzlərindən biri kimi qəbul edilməsi haqqında qərar çıxarılmışdır. SSRİ-nin dağılmasından 11 ay əvvəl baş vermiş bu hadisələr Sovet İttifaqının çökməsinə təkan vermiş, ölkəmizdə milli azadlıq hərəkatının genişləndirilməsində mühüm rol oynamışdır. Bu yola Naxçıvan Muxtar Respublikası SSRİ-nin dağılmasından əvvəl özünün müstəqilliyini elan etməyə doğru ciddi siyasi gedişlər etməyə nail olmuşdur.

Görkəmli dövlət xadimi Heydər Əliyevin 1991-ci ilin sentyabr ayından etibarən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsində işləməsi sayəsində muxtar respublika erməni işğalından xilas edilmiş, burada müstəqil dövlətçilik üçün zəruri olan mühüm islahatlar qətiyyətlə həyata keçirilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyevin rəhbərliyi ilə təsərrüfat idarəetmə strukturları olan kolxoz və sovxozların ləğv edilməsi, torpaq islahatlarının həyata keçirilməsi, regionda milli ordu hissələrinin təşkili, Türkiyə ilə sərhəddə Araz çayı üzərində “Ümid körpüsü”nün salınması, Yeni Azərbaycan Partiyasının yaradılması, gənclərin Türkiyə Cümhuriyyətinin universitetlərində təhsil almaq üçün göndərilməsi, Dünya Azərbaycanlılarının Həmrəylik Gününün təsis olunması və sair mühüm tədbirlər, nəinki muxtar respublikada, ümumən, Azərbaycan miqyasında yeni siyasi-iqtisadi və mədəni mühitin formalaşdırılması və inkişaf etdirilməsi baxımından əhəmiyyətli hadisələrə çevrilmişdir.

Naxçıvan Muxtar Respublikası müstəqillik illərindən böyük sürətlə inkişaf etməkdədir. Fəaliyyətini görkəmli dövlət xadimi Heydər Əliyevin dövlətçilik proqramının Naxçıvanda dönmədən həyata keçirilməsinə həsr edən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun ardıcıl və məqsədyönlü rəhbərliyi ilə muxtar respublika bütün istiqamətlər üzrə hərtərəfli şəkildə irəliyə doğru böyük sürətlə addımlamaqda davam edir.

Dayanıqlı sosial-iqtisadi inkişafın nəticələrinə görə Naxçıvan Muxtar Respublikasının Azərbaycanın iqtisadi rayonları arasında birinci yeri tutması buradakı yüksəlişin vüsəti haqqında aydın təsəvvür əldə etməyə imkan yaradır. Naxçıvan Muxtar Respublikası müstəqillik illərində aqrar sahəni bütün istiqamətlər üzrə inkişaf etdirməklə yanaşı, həm də müasir sənaye regionuna çevrilmişdir. Əsas kənd təsərrüfatı və sənaye məhsulları ilə muxtar respublika əhalisinin təmin edilməsi ilə bərabər, yaxın və uzaq xarici ölkələrə mineral su, duz, mərmər, sement, bağ və bostan məhsullarının emal sənayesi mallarının ixrac olunması, Naxçıvan Muxtar Respublikasındakı dinamik sürətdə inkişaf edən sosial-iqtisadi həyatın reallıqlarıdır. Müasirtipli şəhərsalma mədəniyyətinin formalaşdırılması, kənd mərkəzlərinin salınması, yüksək keyfiyyətə malik yolların çəkilməsi, nümunəvi sənaye zonalarının yaradılması, məktəb tikintisi baxımından da Naxçıvan təcrübəsi əsl nümunə hesab oluna bilər.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun düşünülmüş siyasəti nəticəsində muxtar respublikanın paytaxtı Naxçıvan şəhərinin elm, ali təhsil və mədəniyyət mərkəzinə çevrilməsi, burada hərtərəfli şəkildə inkişaf etmiş universitet şəhərciklərinin salınması ölkəmizin yüksəkixtisaslı mütəxəssislərlə təmin olunmasına və ziyalı potensialının artırılmasına Naxçıvan məktəbinin daha çox fayda verməsinə şərait yaradır. Naxçıvan Dövlət Universitetinin beynəlxalq aləmdə tanınması, Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin ölkə elmi mühitində xüsusi çəkiyə malik olması, ali təhsil ocaqlarının maddi-texniki bazalarının inkişaf etdirilməsi və müasirləşdirilməsi, Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrının səmərəli fəaliyyəti regionda yüksək elmi-mədəni inkişafın təmin olunmasına gur işıq salır. Son illərdə Naxçıvan şəhəri İslam Mədəniyyətinin Paytaxtı, ölkəmizin Gənclər Paytaxtı missiyalarını da şərəflə yerinə yetirmişdir.

Hazırda Naxçıvan şəhərində iki min nəfərə yaxın adamın ibadət etməsinə imkan verəcək möhtəşəm məscid kompleksi tikintisində tamamlanma işlərinin aparılması regionda dini-mənəvi dəyərlərin inkişaf etdirilməsinə yeni töhfə olacaq. Naxçıvan şəhərində “Gənclər şəhərciyi”nin salınması burada yeni nəsillərin yaşayıb-işləməsinə, qurub-yaratmasına təminat verir. Ağbulaq Xizək Mərkəzinin açılışa hazırlanması Naxçıvanın dünya turizminin cəlbedici mərkəzlərindən birinə çevrilməsində mühüm rol oynayacaqdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin təşəbbüsü ilə uzun illərdən bəri çətin blokada şəraitində yaşamaqda davam edən Naxçıvan Muxtar Respublikasının dəmir yolu nəqliyyatının bərpa edilməsinə dair razılaşdırmanın əldə olunması, bu regionu Azərbaycanın digər rayonları ilə əlaqələndirən yeni avtomobil yolunun çəkilməsinin planlaşdırılması qədim diyarın müasir inkişafında xüsusi əhəmiyyətə malik olacaqdır. Bakı-Tbilisi-Qars dəmir yolunun Qars-İqdır-Sədərək-Şərur magistralı vasitəsilə Naxçıvana birləşdirilməsi muxtar respublikanın hərtərəfli inkişafına yeni nəfəs gətirəcək mühüm hadisədir. Ümumiyyətlə, yaradılması çox da uzaqda olmayan Naxçıvan nəqliyyat dəhlizi ilə Naxçıvan Muxtar Respublikası müasir dövrün əsas tranzit mərkəzlərindən birinə çevrilə bilər. Naxçıvan nəqliyyat dəhlizinin Türkiyə vasitəsilə Avropaya, İran yolu ilə Asiyaya, Bakıdan keçməklə Rusiyaya doğru genişləndirilməsi regionun, daha böyük inkişafına start vermək deməkdir.

Bütün bunlar Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının bugünkü müasir intibah mərhələsinin yeni üfüqlərə doğru daha da inkişaf etdirilməsinə tam təminat verir. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin müstəqil dövlətçilik ideyalarını məsuliyyət və şərəflə həyata keçirən qədim və həmişəcavan diyar Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun rəhbərliyi ilə müasir inkişafın əsl nümunələrini təqdim etməkdə davam edir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müəyyən etdiyi yeni inkişaf strategiyasının işığında Naxçıvan Muxtar Respublikasında dövlət qayğısı və fədakar zəhmət sayəsində qazanılan nailiyyətlər müasir dövrün möhtəşəm hesabatı olmaqla bərabər, həm də gələcəkdə daha böyük inkişafın reallıqlarını müəyyən edir.

Naxçıvan Muxtar Respublikası özünün qarşıdakı yüz illiyinə doğru qətiyyətlə addımlayır.

**İsa HƏBİBBƏYLİ**
***AMEA-nın vitse-prezidenti,***
***Milli Məclisin deputatı, akademik***
***“Azərbaycan qəzeti”, 9 fevral 2021-ci il***

***Vətən və yurd sevgisindən yoğurulan, qurub-yaratmaq əzmindən güc alan, müdrik siyasətə əsaslanan mahir idarəetmə sükanı qədim və ulu diyarımızı dinamik inkişaf tempi ilə daim irəliyə, yeni zirvələrə doğru aparmaqdadır. Milli-mənəvi dəyərləri qoruyub yaşatması, mühüm siyasi-iqtisadi yenilikləri ilk olaraq reallaşdırması, elm, təhsil, innovasiya sahəsindəki novatorluğu ilə müasir tarixin yeni inkişaf modelinin müəllifinə çevrilən Naxçıvan mühüm sosial-iqtisadi nailiyyətləri ilə daha bir ili arxada qoydu. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin dördüncü sessiyasındakı məruzəsində vurğuladığı kimi, 2020-ci ildə ölkəmizdə ümummilli liderimiz Heydər Əliyevin siyasi xəttinin uğurla davam etdirilməsi nəticəsində muxtar respublikamızda da iqtisadi inkişaf dinamikası qorunub saxlanılmış, əhalinin rifahının yaxşılaşdırılması, yeni iş yerlərinin açılması və məşğulluğun təmin olunması sahəsində sistemli tədbirlər görülmüşdür. Muxtar respublikamızın 2021-ci ilə bütün parametrlər üzrə iqtisadi sabitliyə və davamlı inkişafa nail olmaqla, mövcud resurslardan səmərəli istifadə nəticəsində makroiqtisadi göstəricilərdə artım əldə etməklə qədəm qoyması inkişaf konsepsiyasının gələcək uğurlarından soraq verir.***

*İcmal*

# Müasir dövrün unikal inkişaf modelinin müəllifi NAXÇIVAN

## *Yeni ilin ilk ayının ümumi mənzərəsi sosial-iqtisadi inkişafın bundan sonra da davamlı xarakter daşıyacağını göstərir*

### *İnkişaf və quruculuq ünvanlarımızdan olan Şərur qurur, yaradır və yaşadır*



Bu gün Naxçıvan Muxtar Respublikasındakı sabitlik və tərəqqi ümummilli liderimiz Heydər Əliyevin müəllifi olduğu inkişaf strategiyasının tərkib hissəsi və məntiqi davamıdır. Ötən illər ərzində əhalinin rahat yaşayışının təmin olunması və insan amilinə verilən dəyərin nəticəsidir ki, quruculuq işləri bütün yaşayış məntəqələrini əhatə edir. Muxtar respublikanın hərtərəfli tərəqqisini özündə əks etdirən inkişaf və quruculuğun ünvanına çevrilmiş Şərur da bu gün yüksəlişin yeni mərhələsindədir. Bu illər ərzində rayonun siması tamamilə dəyişmiş, çox sayda sosial obyektlər, istehsal və emal müəssisələri yaradılmış, yollar, körpülər salınmış, meliorasiya qurğuları istismara verilmişdir. Ötən il Şərur şəhərində “Naxçıvanbank” Açıq Səhmdar Cəmiyyətinin Şərur rayon filialının inzibati binasının, Təqaüdçülər Klubunun, Mərasim Evi və dini icma üçün iş otaqlarının, musiqili fəvvarənin, 4 yaşayış binasının əsaslı təmiri başa çatdırılmışdır. Rayonda Mədəniyyət sarayının, zirzəmi ilə birlikdə 6 mərtəbədən ibarət olan 40 mənzilli yaşayış binasının, Bayraq və Saat meydanlarının tikintisi, Şəhidlər xiyabanının, 1 yaşayış binasının, Şərur şəhər inzibati ərazi dairəsi üzrə nümayəndəliyinin və Dövlət Sosial Müdafiə Fondu publik hüquqi şəxsin Şərur rayon şöbəsinin inzibati binalarının əsaslı təmiri və yenidən qurulması davam etdirilib. Bu genişmiqyaslı quruculuq tədbirlərindən rayonun digər bölgələri kimi, Şəhriyar kəndinə də pay düşüb. Kənddə geniş quruculuq işləri aparılmış, yol yenidən qurulmuş, ümumtəhsil və uşaq musiqi məktəbləri üçün yeni binalar, kənd və xidmət mərkəzləri, həkim ambulatoriyası tikilmişdir. Yanvarın 14-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov həmin quruculuq ünvanlarının açılışlarında iştirak etmişdir.

Şəhriyar kənd tam orta məktəbinin yeni binasının istifadəyə verilməsi münasibətlə keçirilən tədbirdə muxtar respublika rəhbərinə məlumat verilmişdir ki, 224 şagird yerlik ikimərtəbəli məktəbdə 16 sinif otağı, kimya, biologiya və fizika laboratoriyaları, hərbi kabinə, şahmat sinfi, kompüter, müəllimlər və psixoloq otaqları, STEAM kabinəsi, kitabxana, qarderob və idman zalı vardır. STEAM kabinəsi 1 elektron lövhə, 2 kompüter, 3D printer olmaqla, mikrobit, arduino setləri və digər öyrədici STEAM qurğuları ilə təchiz edilmişdir.

Baxış zamanı Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsi ilə 200-dən çox təhsil müəssisəsi arasında keçirilən “Naxçıvan Muxtar Respublikası: inkişafın yeni mərhələsi” mövzusunda distant dərs izlənilmiş, STEAM kabinəsində şagirdlərin əl işləri nümayiş etdirilmiş, hazırlanan layihələr haqqında məlumat verilmişdir.

Ali Məclisin Sədri müəllimlərlə görüşmüş, Şəhriyar kənd tam orta məktəbinin yeni binasının istifadəyə verilməsi münasibətilə kollektivi təbrik edərək daha bir kənd məktəbinin müasir tədrisin tələbləri səviyyəsində qurulmasını, ümumilikdə, muxtar respublikanın həyatında əlamətdar hadisə kimi dəyərləndirmişdir. Məktəbin son 5 ilinin göstəricilərindən bəhs edən muxtar respublika rəhbəri qazanılan uğurlara görə kollektivə təşəkkür etmiş, məktəbdə tədrisin keyfiyyətinin daha da yüksəldilməsi ilə əlaqədar tapşırıq və tövsiyələr vermişdir.

Ali Məclisin Sədri dövlətimizin təhsilə göstərdiyi qayğı nəticəsində məktəbin nailiyyətlərinin bundan sonra daha da artacağına, yaradılan şəraitdən səmərəli istifadə olunacağına, təhsil ocağının muxtar respublikanın nümunəvi məktəbləri sırasında öz yerini qoruyub saxlayacağına əminliyini bildirmişdir.

Muxtar respublikada gənc nəslin istedad və bacarıqlarının üzə çıxarılması, asudə vaxtlarının səmərəli təşkili istiqamətində görülən tədbirlər çərçivəsində onlara milli musiqi sənətinin aşılanması və musiqi təhsilinin nümunəvi təşkili də diqqət mərkəzində saxlanılır. Bu gün muxtar respublikamızda fəaliyyət göstərən 26 musiqi məktəbindən 24-ü müasir tələblər səviyyəsində qurularaq istifadəyə verilib. Şərur rayonunun Şəhriyar kəndində musiqi məktəbi üçün yeni binanın inşası da bu sahədə görülən işlərin davamıdır. Yanvarın 14-də təhsil müəssisəsinin yeni binası istifadəyə verilmiş, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov binada yaradılan şəraitlə tanış olmuşdur.

Şəhriyar Kənd Uşaq Musiqi Məktəbinin fəaliyyəti haqqında məlumat verildikdən sonra Ali Məclisin Sədri musiqi məktəbinin kollektivi ilə görüşmüş, musiqi məktəbinin istifadəyə verilməsi münasibətilə kollektivi təbrik etmiş, belə təhsil müəssisələrinin milli musiqimizin yaşadılmasındakı müstəsna rolundan danışmışdır.

Ali Məclisin Sədri məktəbdə dünya xalqlarına məxsus musiqi alətlərinin öyrədilməsinə də yer verilməsi, məktəb nailiyyətlərini daha da artırması, muxtar respublikanın musiqi məktəbləri içərisində layiqli yer tutması ilə bağlı tapşırıq və tövsiyələr vermiş, kollektivə fəaliyyətində uğurlar arzulamışdır.

*Ardı 3-cü səhifədə*

Həmin gün Şəhriyar Kənd Mərkəzi də istifadəyə verilmiş, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri binada yerləşən təşkilatların fəaliyyəti və yaradılan şəraitlə maraqlanmışdır. Bildirilmişdir ki, 3 mərtəbəli binada dövlət qurumları əhaliyə səmərəli xidmət göstərəcəkdir. Mərkəzdə 320 nömrə tutumlu ATS quraşdırılmış, genişzolaqlı internetə çıxış imkanı yaradılmış rabitə evi, polis sahə və baytarlıq məntəqələri, 5027 ədəbiyyat fonduna malik olan kitabxana, inzibati ərazi dairəsi üzrə nümayəndəlik, bələdiyyə, mədəniyyət evi, öz ətrafında kəndin ictimai fəallarından ibarət 102 siyasi həmfikri birləşdirən Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatı, statistika və arxiv otaqları, 44 yerlik zal vardır. Muxtar respublika rəhbəri akt zalında ailə təsərrüfatı sahiblərinin maarifləndirilməsi və digər tədbirlərin keçirilməsi ilə bağlı tapşırıqlar vermişdir.

Ölkəmizdə dövlət siyasətinin əsas prioritetlərindən birini insanların sağlamlığı təşkil edir. Muxtar respublikada da müasir tibbi avadanlıqlarla təchiz olunmuş səhiyyə ocaqlarının inşası insanların sağlamlığının qorunması üçün geniş imkanlar açır. Yanvarın 14-də Şəhriyar kəndində həkim ambulatoriyası istifadəyə verilmiş, Ali Məclisin Sədri səhiyyə ocağının fəaliyyəti ilə maraqlanmışdır.

Ambulatoriyada əhaliyə yüksəksəviyyəli tibbi xidmətin təşkili üçün yaradılan şərait, müasir tibbi avadanlıqlar barədə məlumat verilmiş, muxtar respublika rəhbəri patronaj xidmətinin, yaş qruplarına uyğun işin təşkili, ambulatoriyada fəaliyyət göstərən aptekin tələbata uyğun dərman preparatları sifarişinin verilməsi və tibbi maarifləndirmə işinin aparılması barədə tapşırıqlar vermişdir.

Sakinlərin rahatlığına xidmət edən quruculuq tədbirləri çərçivəsində abadlaşan Şəhriyar kəndinin avtomobil yolu da yenidən qurulmuş, yanvarın 14-də avtomobil yolu istifadəyə verilmişdir. Yolda aparılan yenidənqurma işləri ilə tanışlıq zamanı məlumat verilmişdir ki, 3580 metrlik kənd avtomobil yolu yenidən qurulmuş, asfalt örtük salınmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Şəhriyar kəndində əhalinin rahatlığının təmin olunması istiqamətində görülən kompleks tədbirlər çərçivəsində tikilmiş yeni xidmət mərkəzinin də açılışını etmişdir. Bildirilmişdir ki, mərkəzdə sakinlərin gündəlik tələbatını ödəyəcək zəruri xidmət sahələri fəaliyyət göstərir. Burada bərbərxana, gözəllik salonu, dərzi, ət satışı yeri, ərzaq və təsərrüfat malları mağazalarında isə keyfiyyətli yerli ərzaq məhsullarının, gündəlik tələbat mallarının, xüsusilə ailə təsərrüfatı məhsullarının satışı təşkil olunmuşdur. Mərkəzdə 6 nəfər işlə təmin edilmişdir. Ali Məclisin Sədri xidmət mərkəzində ailə təsərrüfatı məhsullarının satışına üstünlük verilməsi barədə tapşırıq vermişdir.

Xidmət mərkəzi ilə tanışlıqdan sonra kənd sakinləri ilə görüş olmuş, Ali Məclisin Sədri Şəhriyar kəndinin abad yaşayış məntəqələri sırasına qoşulması münasibətilə sakinləri təbrik edərək demişdir: ***"Bu gün Şəhriyar kəndi Azərbaycanın müasir kəndləri sırasına daxil olub. Kənddə yeni məktəb binasının, uşaq musiqi məktəbinin, kənd və xidmət mərkəzlərinin, həkim ambulatoriyasının, yolun və digər sosial obyektlərin istifadəyə verilməsi sakinlərin rahat yaşayışına hesablanıb. Harada rahatlıq var, orada inkişaf olacaq, məskunlaşma artacaqdır. Şəhriyarda da yaradılan şərait əhalinin rahatlığını təmin edəcək, məskunlaşma daha da artacaqdır. Bütün bunlar kəndin gələcək uğurlarına təminatdır. Kəndin muxtar olaraq torpaqları vardır. Heyvandarlıq, maldarlıq, quşçuluq inkişaf edib, torpaqlar əkilir, yaxşı məhsul götürülür, ailə təsərrüfatları formalaşıb. Bunların davamlı olması üçün dövlət tərəfindən bundan sonra da sakinlərə dəstək göstəriləcəkdir. Torpaqların əkilməsi dövlətin inkişafına töhfədir. Ona görə də kənd sakinləri ərzaq təhlükəsizliyinin təmin olunmasına və ölkənin inkişafına öz töhfələrini verməlidirlər".***

### *İnsan amilinə verilən dəyər, şəhid ailələrinə böyük qayğı və ehtiram*

İnsan amili dövlət siyasətinin əsas qəbul edilən prioriteti kimi muxtar respublikamızda istifadəyə verilən yaşayış binaları vətəndaşların mənzil-məişət şəraitinin yaxşılaşdırılması ilə yanaşı, həm də məskunlaşmanın və yüksək rifahın göstəricisidir. Bu tədbirlər çərçivəsində şəhid ailələrinin mənzillə təmin olunması xüsusilə diqqətdə saxlanılır. Ötən illər ərzində muxtar respublikada Azərbaycanın ərazi bütövlüyü, suverenliyi, müstəqilliyi uğrunda həyatlarını qurban vermiş 42 şəhid ailəsinə mənzil verilmiş, onlar hərtərəfli dövlət qayğısı ilə əhatə olunmuşlar. Yanvarın 19-da Şahbuz şəhərində yeni yaşayış binası istifadəyə verilmiş, binada şəhid Mehman Orucovun ailəsinə 2 otaqlı mənzil təqdim olunmuşdur. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov çıxış edərək yeni yaşayış binasında ilk mənzilin şəhid ailəsinə təqdim olunduğunu diqqətə çatdıraraq bütün şəhidlərimizə Allahdan rəhmət, qazilərimizin tezliklə sağalmasını, şəhid ailələrinə isə səbir diləmiş, mənzilin orderini şəhidin anası Çəməngül Orucovaya təqdim etmişdir. Şəhid ailəsinə verilən mənzildə yaşayış üçün bütün şərait yaradılmış, təmir olunmuş, xalça hədiyyə edilmişdir.

Binaya baxış zamanı məlumat verilmişdir ki, zirzəmi ilə birlikdə 6 mərtəbədən ibarət olan bina 40 mənzillidir. Mənzillərdən 20-si üçotaqlı, 20-si isə ikiotaqlıdır. Mənzillər müasir kommunal şəraitlə təmin olunmuş, yaşayış binasının zirzəmisində xidmət mərkəzi yerləşir.

### *Vaxtında görülmüş işlər muxtar respublikada epidemiyanın pandemiyaya çevrilməsinin qarşısını aldı*

Əhalinin sağlamlığının qorunması və yoluxucu xəstəliklərin qarşısının alınması səhiyyə sisteminin əsasını təşkil edir. Muxtar respublikada bu sahədə görülən işlər, xüsusilə gigiyena və epidemiologiya sahəsində idarəetmənin təkmilləşdirilməsi, mütəmadi dezinfeksiya işlərinin aparılması və təmizliyə diqqətin artırılması yoluxucu xəstəliklərin yayılmasının qarşısını almışdır. Dünyada pandemiya halını almış virusun muxtar respublikada geniş yayılmaması və epidemioloji vəziyyətin sabit olması da görülən işlərin nəticəsidir. Yanvarın 19-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov Şahbuz Rayon Gigiyena və Epidemiologiya Şöbəsi üçün yaradılan yeni iş şəraiti ilə maraqlanmışdır.

Naxçıvan Muxtar Respublikası Səhiyyə nazirinin müavini – Gigiyena və Epidemiologiya Mərkəzinin direktoru Zeynəb Mustafayeva Ali Məclisin Sədrinin Naxçıvan Muxtar Respublikasının Epidemioloji Atlasının hazırlanması ilə bağlı tapşırığına əsasən yeni nəşr olunmuş atlası muxtar respublika rəhbərinə təqdim etmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov çıxış edərək 1930-cu ildə yaradılan Şahbuz Rayon Gigiyena və Epidemiologiya Şöbəsinin ötən illərdə rayonun inkişafına töhfə verdiyini bildirmiş, bu gün gigiyena və epidemiologiya sahəsinin üzərinə düşən mühüm vəzifələrdən danışmışdır. Muxtar respublika rəhbəri vurğulamışdır ki, ərazilərin epidemioloji vəziyyətinə nəzarət olunması üçün dezinfeksiya işləri aparılmalı və əhali daim maarifləndirilməli, bu sahə ilə əlaqədar kadr potensialının təkmilləşdirilməsi nəzarətdə saxlanılmalı, maarifləndirici tədbirlər keçirilməlidir. Gigiyena və epidemiologiya sahəsində vaxtında görülmüş işlərin nəticəsidir ki, muxtar respublikada epidemiya pandemiyaya çevrilmədi.

Gigiyena və Epidemiologiya Şöbəsində yaradılan şəraitlə tanışlıqdan sonra Ali Məclisin Sədri bölgədəki turistik ərazilərdə və yaylaqlarda dezinfeksiya işlərinin aparılması, su hövzələrindən nümunələrin götürülərək yoxlanılması, ailə təsərrüfatlarında istehsal olunan konservləşdirilmiş məhsullara nəzarət olunması barədə tapşırıqlar vermişdir.

### *Qürur və and yerimiz olan şəhidlərimizin xatirəsi unudulmur, qəhrəmanlıq örnəkləri, ideya və amalları yaşadılır*

Ölkəmizdəki azad, suveren, demokratik dövlət quruculuğu prosesi şərəfli və çətin mübarizə yolu keçmiş, bugünkü dövlət müstəqilliyimiz Vətən yolunda, milli müstəqillik uğrunda öz həyatını qurban verərək ən yüksək zirvəyə ucalan Vətən övladlarının canı, qanı bahasına başa gəlmişdir. 20 Yanvar faciəsi isə müstəqillik uğrunda mübarizə tariximizdə ən şanlı səhifə, qürur və şərəf günü kimi başlıca yer tutur. 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə sovet ordusunun hissələri və xüsusi təyinatlılar 70 illik əsarətə, çökməkdə olan sovet imperiyasına qarşı azadlıq, suverenlik uğrunda milli mücadiləyə başlayan Azərbaycan xalqının milli iradə və əzmini sarsıtmaq, insanların müstəqillik arzularını boğmaq istədi. Bakı şəhərində 147 Azərbaycan vətəndaşının şəhid olması, 744 nəfərin yaralanması və xəsarət alması ilə nəticələnən qanlı faciə törədildi. Qanlı Yanvar faciəsi Azərbaycan xalqının azadlıq istəyinin qarşısını almaq cəhdi ilə yanaşı, həm də ermənilərin işğalçılıq siyasətinin həyata keçirmələrinə rəvac verən terror aktı idi. Ermənilərin faciədən bir neçə gün əvvəl Naxçıvana hücumları bunu bir daha təsdiq edir. 1990-cı il yanvarın 18-də Kərki kəndi SSRİ Müdafiə Nazirliyinin 7-ci ordusunun köməyi ilə ermənilər tərəfindən işğal olundu. Muxtar respublikanın ərazi bütövlüyü və vətəndaşlarının həyatı təhlükə altında qaldığından, beynəlxalq Qars müqaviləsinin şərtləri kobud surətdə pozulduğundan Naxçıvan Muxtar Sovet Sosialist Respublikası Ali Soveti 1990-cı il yanvarın 19-da "Naxçıvan MSSR-də yaranmış ictimai-siyasi vəziyyət haqqında" tarixi Qərar qəbul etdi. Bu qərara əsasən Naxçıvan MSSR Sovet imperiyasının tərkibindən çıxdı. 1990-cı il yanvarın 20-də, Qanlı Yanvar hadisələrinin törədilməsindən 8 saat əvvəl Sədərəyə erməni silahlı dəstələrinin hücumları başladı və bununla da 20 Yanvar faciəsinin ilk qanlı səhifəsi yazıldı.

Ümummilli lider Heydər Əliyev Naxçıvanda yaşayıb fəaliyyət göstərdiyi 1990-1993-cü illərdə Azərbaycan xalqının azadlıq və müstəqillik ideyalarının gerçəkləşdirilməsi, müstəqil dövlətçilik prinsiplərinin həyata keçirilməsi istiqamətində tarixi addımlar atmışdır. Bu gün xalqımız ulu öndərin müqəddəs ruhunu həm də ona görə əziz tutur ki, vətənpərvər siyasi xadim, milli lider kimi 20 Yanvar faciəsinə ilk dəfə Naxçıvanda siyasi qiymət vermiş, xalqın milli müstəqillik uğrunda mübarizəsinə siyasi bəraət qazandıraraq şəhidlərimizə yüksək ehtiram nümayiş etdirmişdir. Dahi şəxsiyyətin rəhbərliyi ilə Naxçıvan Muxtar Respublikasının Ali Məclisi 1990-cı il 21 noyabr tarixli "1990-cı ilin yanvar ayında Bakı hadisələrinə siyasi qiymət verilməsi haqqında" Qərar qəbul etmiş, həmin Qərarda 20 Yanvarın hər il Naxçıvan Muxtar Respublikasında "Milli Matəm Günü" kimi qeyd olunması əksini tapmışdır. 1992-ci il yanvarın 13-də isə daha bir tarixi addım atılmış, "1990-cı ilin yanvar ayında Bakı faciəsi ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Rəyasət Heyətinin bəyanatı" qəbul olunmuşdur.

Ümummilli liderin siyasətinin davamı olaraq bu gün 20 Yanvar şəhidlərinin xatirəsinin əbədiləşdirilməsi, adlarının uca tutulması, o cümlədən onların ailələrinin sosial müdafiəsinin gücləndirilməsi daim diqqət mərkəzində saxlanılır, bu istiqamətdə mühüm tədbirlər həyata keçirilir.

Xalqımız dövlət müstəqilliyinin əsası olan ərazi bütövlüyünün təmin olunması, işğal altındakı torpaqlarımızı azad etmək, növbəti işğalçı hücumlara, faciə və soyqırımlara məruz qalmamaq üçün 20 Yanvarda nümayiş etdirdiyi milli iradə və qətiyyəti Vətən müharibəsində bir daha sərgilədi, 20 Yanvar şəhidlərimizin Vətən xalqımız uğrunda şərəflə, sonadək mübarizə aparmaq ideyalarının yaşadıldığını təsdiq etdi.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə 44 gün davam edən bu müharibədə ordumuz torpaqlarımızı işğaldan azad etdi, şəhidlərimizin qanı yerdə qalmadı, Azərbaycan böyük tarixi Qələbə qazandı. Bu il xalqımız 20 Yanvar şəhidlərini bugünkü qələbəmizin bəxş etdiyi milli vüqar və əzəmət ilə yad etdi.

Yanvarın 20-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov Qanlı Yanvar faciəsində həlak olanların və şəhidlərin əziz xatirəsini yad etmək üçün Naxçıvan şəhərindəki Şəhidlər xiyabanına gələrək oradakı Ana abidəsinin önünə əklil qoymuş, şəhidlərin xatirəsinə ehtiramını bildirmişdir. Ali Məclisin Sədri şəhidlərin məzarlarını və 1918-1920-ci illərdə erməni daşnakları ilə mübarizədə Naxçıvanın köməyinə gələn qardaş Türk ordusunun şəhid olmuş əsgərlərinin xatirəsinə ucaldılmış abidəni ziyarət edərək güllər qoymuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin, Nazirlər Kabinetinin, Naxçıvan Şəhər İcra Hakimiyyətinin, nazirlik, komitə, xidmət, şirkət və baş idarələrin, müəssisə və təşkilatların, ali məktəblərin, hərbi hissələrin nümayəndələri də şəhidlərin əziz xatirəsini ehtiramla yad etmiş, muxtar respublikanın rayon mərkəzlərində də 20 Yanvar faciəsinin 31-ci ildönümü ilə bağlı tədbirlər keçirilmişdir.

20 Yanvar şəhidlərimiz mübarizlik, qətiyyət, Vətən uğrunda şəhid olmaq ucalığının müqəddəsliyini onilliklərboyu aşılamaqla gənc nəslə örnək olmuş, bugünkü qalibiyyətimizin müəlliflərinin – vətənpərvər nəslin yetişməsinə rəvac vermişlər. Xalqımız onların müqəddəs ideyalarına sadiq qalmaqla əziz xatirələrinin əbədi yaşayacağını bir daha bəyan etdi.

### *Əməkdaşlıq əlaqələri yeni müstəvidə*

Ötən əsrin 90-cı illərində müstəqil Azərbaycan dövlətinin ilk diplomatik əlaqələrinin əsası məhz ümummilli liderimiz Heydər Əliyev tərəfindən Naxçıvanda qoyulmuş, həmin tarixə söykənən Azərbaycan-İran əlaqələri bu gün keyfiyyətcə yeni mərhələyə yüksəlmişdir. Münasibətlərin genişləndirilməsi istiqamətində atılan addımlar siyasi, iqtisadi və mədəni sahədə əlaqələrin dərinləşməsi üçün yeni imkanlar açmışdır. Yanvarın 30-da İran İslam Respublikasının Xarici İşlər naziri Məhəmməd Cavad Zərif və rəhbərlik etdiyi nümayəndə heyəti Naxçıvan Muxtar Respublikasında səfərdə olmuşdur. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov İranın Xarici İşlər naziri Məhəmməd Cavad Zərifl ə görüşmüşdür. Ali Məclisin Sədri qonağı Naxçıvanda görməkdən məmnunluğunu bildirmiş və muxtar respublikaya səfərinin əhəmiyyətini vurğulamışdır.

Məhəmməd Cavad Zərif göstərilən səmimi münasibətə görə minnətdarlıq edərək İran İslam Respublikasının Azərbaycan və onun Naxçıvan Muxtar Respublikası ilə əlaqələrə mühüm əhəmiyyət verdiyini bildirmiş, səfərinin məqsədinin region ölkələri arasında sülhün bərqərar edilməsi və yeni əməkdaşlıq imkanları ilə bağlı müzakirələr aparmaq olduğunu, yaxın gələcəkdə bölgədə çoxtərəfli əməkdaşlığın təşkilinə ümid etdiyini demişdir. Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə İran İslam Respublikası arasındakı əlaqələrdən danışan Ali Məclisin Sədri bildirmişdir ki, Ermənistanın işğalçılıq siyasətinə son qoyulması bölgə üçün geniş imkanlar açır. Naxçıvan isə bölgənin logistik mərkəzidir. Söhbət zamanı qarşılıqlı maraqdoğuran məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun İran İslam Respublikasının Xarici İşlər naziri Məhəmməd Cavad Zəriflə görüşündən sonra mətbuata bəyanatla çıxış olmuşdur.

*Yeni ilin ilk ayının ümumi mənzərəsinin təhlili onu deməyə əsas verir ki, bu il də muxtar respublikamızın müstəqillik tarixinə sosial-iqtisadi uğurlar, mühüm ictimai-siyasi, elmi-mədəni yeniliklərlə yazılacaq. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun da dediyi kimi,* ***"Qarşıda bizi daha ciddi vəzifələr gözləyir. Mövcud tərəqqi və sabitlik bundan sonra da qorunub saxlanılmalı və daha da inkişaf etdirilməlidir. Ölkə Prezidenti cənab İlham Əliyevin də dediyi kimi, "Qələbə qazanmışıq və bu Qələbə ölkəmiz üçün yeni dövr açır. Bu dövr inkişaf, təhlükəsizlik, tərəqqi dövrü olacaqdır".***

✍ **Mehriban SULTAN**
***Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti***

## Onlayn ixtisasartırma kursu təşkil olunub



Naxçıvan Dövlət Universitetində Fizika, Kimya və Biologiya fənlərini tədris edən orta məktəb müəllimləri üçün onlayn ixtisasartırma kursu təşkil olunub. Kursun başa çatması münasibətilə keçirilən tədbirdə çıxış edən universitetin Tədris və tərbiyə işləri üzrə prorektoru Rafiq Rəhimov qeyd edib ki, ali və orta ümumtəhsil məktəbləri ilə belə əlaqəli tədbirlər bilik və təcrübə mübadiləsi, gələcək pedaqoji fəaliyyət prinsiplərinin düzgün müəyyənləşdirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

Ümumi və nəzəri fizika kafedrasının müdiri, fizika üzrə fəlsəfə doktoru, dosent Fərman Qocayev diqqətə çatdırıb ki, belə kursların keçirilməsi muxtar respublika üzrə ixtisas üzrə müəllimlərin peşə bacarıqlarının möhkəmlənməsində xüsusi əhəmiyyətə malikdir.

Tədbirdə iştirak edən orta məktəb müəllimlərinin mövzu ilə bağlı çıxışlarında vurğulanıb ki, belə kurslar cəmiyyətin mövqeyində mühüm yer tutan təhsil sistemində, müəllimlərin pedaqoji fəaliyyətlərinin keyfiyyətinə müsbət təsir göstərir.

Sonda kursu başa vuran müəllimlər universitet tərəfindən sertifikatla təltif ediliblər.

Qeyd edək ki, 3 ixtisas üzrə keçirilən ixtisasartırma kursu 5 gün davam edib.

***Naxçıvan Dövlət Universitetinin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi***

***Qədim türklər arasında qeyd olunan mərasimlərdən biri də Xıdır Nəbi bayramıdır. Bu mərasim dövri-qədimdən təbiətin oyanması, otların cücərməsi, axar suyun təmizlənməsi və digər təbii proseslərlə müşayiət edilib, Böyük çillə ilə Kiçik çillə arasında keçirilən bu mərasimi ata-babalarımız bayram kimi qeyd edib. Xıdır Nəbi bayramının nə vaxtdan bəri keçirildiyi tam məlum olmasa da, o, türk xalqları arasında geniş yayılıb.***

*Xalq təqvimi*

# Yazın gəlişinin ilk müjdəçisi – *Xıdır Nəbi bayramı*



Tədqiqatçıların fikrincə, Xıdır Nəbi suyun, küləyin və havanın himayəçisi kimi təqdim olunur, Xızır Peyğəmbərlə eyniləşdirilir. Bu bayram türkdilli xalqların mifologiyasında mifik obraz, yazın gəlişini xəbər verən mövsümi mərasimidir. Ona görə də Xıdır Nəbi yerini dəyişmir. Xıdır Nəbi bayramından sonra yalançı, daha sonra xəbərçi çərşənbələr və Boz ay gəlir. Boz aydan sonra isə o biri çərşənbələr başlayır. Yəni bu bayram Novruza giriş bayramıdır, təbiətin oyanmasına başlanğıcdır.

Xıdır Nəbi bayramı və Xızır Peyğəmbər barəsindəki məlumatlar Azərbaycan xalqının qədim mifoloji dünyagörüşünün formalaşmasında mühüm əhəmiyyət kəsb edir. Etnoqraf Asəf Orucov qeyd edir ki, Anadolu türklərində bayram "Hıdır-Ellez" adı ilə may ayının 6-da, Balkanlardakı müsəlman-türk xalqları arasında isə aprel ayının üçüncü ongünlüyündə keçirilir. Türkiyənin İqdır bölgəsində isə Naxçıvanda olduğu kimi fevral ayında qeyd edilir. Naxçıvan bölgəsinin müxtəlif yaşayış məntəqələrində də fərqli vaxtlarda keçirilir. Xıdıra hazırlıq yay dövründən başlayır. Çətənə, küncüd, fındıq, şabalıd, noxud, püstə, badam, cəviz, ərik dənəsi, qarpız toxumu tədarük edilir və Xıdır günü qovurulur. Qovurğanın əsasını buğda təşkil edir. Qovurğa qarışığına kişmiş, mövüc, iydə, tut qurusu, xurma qarışdırılır. Qovurğa, əsasən, ağ, yumşaq buğdadan hazırlanır. Xıdır Nəbi və İlaxır (axır çərşənbə) mərasimlərinin hər ikisində papaqatma adəti təkrar olunur. Ordubad rayon sakini Lətifə nənə deyir ki, fevralın 1-ci ongünlüyü ərzində axşam şər qarışandan sonra uşaqlar, cavanlar bir yerə toplaşar, dəstələnib Xıdır nəğməsi oxuya-oxuya qapıları döyər, Xıdır adına pay yığar, xorla oxuyaraq ev sahiblərini səsləyərlər:

*Xıdıra Xıdır deyərlər*
*Xıdırın payın verərlər.*
*Çatma, çatma, çatmaya,*
*Çatma yerə batmaya.*
*Xıdırın payın kəsənin*
*Ayağı yerə çatmaya.*

Uşaqların torbalarına Xıdır xonçasındakı şirniyyat, çərəz və qovurğa qoyularaq yola salınar. Həmin payları gecə bir yerə yığıb saxlayarlar. Səhər onlardan iri kömbələr düzəldər və əlavə olaraq bir də qovut hazırlayarlar. Xıdır Nəbi bayramında yeddi nemətdən – (buğda, cəviz, fındıq, badam, küncüd, qarğıdalı, arpa) qovurğa qovurulur, qovut hazırlanır. O gecə "Xıdır gecəsi" adlanır. Lətifə nənə deyir ki, bu gecə çox mübarək gecədir. Bayramın atributu isə qovurulmuş buğda və qovutdur. Xalq inanclarına görə, əfsanəvi Xıdır Nəbi gələn gün qovurulmuş buğdadan çəkilən qovut unundan xəlvət bir yerə qoyardılar. Elə bir yerə ki ora insan nəfəsi, əl-ayaq toxunmur. Hətta ora onu qoyan adamın özü belə, girməməlidir. (Onu da deyək ki, hansı evdə qovutun üzərində Xıdırın barmaq izləri düşərsə, həmin evdə böyük bayram edərdilər, həmin il o evdə ruzi-bərəkət olardı.) Bir gün əvvəl taxıl qovurularaq kir-kirədə çəkilərək un halına salınardı. Qovut unu böyük bir siniyə tökülərdi və axşam bir tərəfə qoyulardı. İnanca görə gecə vaxtı Xıdır Nəbi atı ilə çaparaq gəlir və qovut ununa əl basır, onu ovsunlayır. Beləliklə də, gələn il bərəkətli olur. Çünki Xıdır Nəbi darda qalanlara kömək edən qüvvədir. Sabahı, bayram günü qovut hazırlanırdı. Sadəcə, qovut ununa şirin su tökülərək qarışdırılır və qovut halına gətirilirdi. Bununla yanaşı, başqa nemətlər də bişirilərdi. İnsanlar bir-birinə qonaq gedər, şənlik edərdilər.



Bayramdan bir gün əvvəl evin kiçik övladını alma ağacının çubuğu dalınca göndərərdilər. Gətirilən şövlər uc tərəfdən səliqə ilə pambığa sarınıb yağda qızardılardı. Axşam evin böyüyü bir-bir şövləri götürüb niyyətlərini sadalayardı. Hər şöv bir niyyət üçün idi. Yurdun salamatlığı, bağ-bağçada bolluq, oğul-qız toyu və başqa xoş niyyətlər edilirdi. Sonra həmin şövlər dəstələnib orta hissədən pambıqla bağlanar və qabdakı unun üstünə sancılardı. Burada Xıdır Nəbinin onların üstündə göz olması üçün ayrıca çubuq qoyulardı. Gecə düşəndə həmin dəstələnmiş çubuqlar şam kimi yandırılardı. Özü yanıb keçənədək ona toxunmazdılar. Həm də səhərədək qablardakı una əl vurulmazdı. Çünki, əvvəlcə, Xıdır Nəbi gəlib öz payını götürməli idi.

Nənənin nəql etdiyi rəvayətlərdən birində deyilir ki, Xızır Peyğəmbər bir qabda dirilik suyu götürüb insanlara gətirirmiş. Çox yorulduğundan yolda bir çinar ağacının kölgəsində yatır. Birdən qab aşır, su tökülür çinarın dibindəki çuxura. Suyun bir hissəsini qarğalar gəlib içir. Qalanını da çinarın kökləri çəkir. Ona görə də deyirlər ki, qarğalar üç yüz il yaşayırlar, çinar ağacı da uzunömürlüdür.

Digər bir rəvayəti isə nənə belə danışır: – Deyirlər ki, qaranlıq dünyada bir bulaq axır, onun suyunu içən heç vaxt ölmür. Xızır o dirilik suyundan içdiyi üçün həmişə diridir və yaşayır. Xızır hər adamın gözünə görünməz. Onu görmək üçün gərək lap yaxşı adam olasan, heç kəsi incitməyəsən. Xızırı kim görsə, ondan nə istəsə, yerinə yetirər.

Araşdırmalarda qeyd olunur ki, türk şairi Üsulinin fikrinə görə, xristian kitablarında "Elya, İlya" şəklində yazılıb, ərəblərdə İlyas adlandırılan Peyğəmbər Xızırdır. Bəzən bu adları qoşalaşdırıb Xıdır-İlyas şəklində də qəbul edirlər. Onlar irfanda rəmzləşiblər: Xızır genişlik, İlyas isə darlıq, sıxılma simvoludur. Bəzən onları qardaş kimi də göstərirlər. Təbəri tarixində də onlar qardaş kimi verilib. Quranın Ramazan ayında nazil olduğu Qədr və Xızır mövludu gecələrində ağacların səcdəyə gəlməsinə inam indi də yaşayır.

Ümumiyyətlə, insanlarda belə bir inam var: Xızır Peyğəmbər darda qalanların, çətinliyə düşənlərin, xəstələrin hamisinə çevrilməklə ən çətin anda onların köməyinə çatıb. Buna görə də qışın ən çətin dövründə, belə demək olarsa, qışın "oğlan çağı"nda Xızır Peyğəmbərin şərəfinə Xıdır Nəbi mərasimini təşkil etmək, onu köməyə çağırmaq qışın çətinliyindən, soyuğundan xilas olmaq anlamına gəlir.

Lətifə Eyvazova deyir ki, Xıdır Nəbi bayramı günü müxtəlif ayinlər də həyata keçirilir. Evin ağsaqqalı bıçağı götürüb tövləyə girər. Həmin ili bala verməyən, qısır olan mal-heyvanın yanında dayanıb deyər ki, evdə yağımız, ətimiz, yavanlığımız qurtarır, bu da bu il bala vermədi. Mən də bunu kəsirəm. Evin ağbirçəyi də gəlib deyər ki, kəsmə. Bundan sonra hər il bala verəcək. Verməsə kəsərsən.

Maraqlı ayinlərindən biri də "Ağacqorxutma"dır. Barverən ağac bar vermədikdə deyirlər ki, çilləyə düşüb. Evin kişisi baltanı götürüb gəlir ötən il bar verməyən həmin ağacın yanına və kötüyünə astadan zərbələr vura-vura, ucadan deyər ki, havalar çox şaxtalı, soyuq keçir, yanacağımız tükənib. Bu ağac onsuz da ötən il bar vermədi. Mən də bu ağacı kəsirəm ki, yandıraq. Evdən bir nəfər yaxınlaşıb onu saxlayar ki, kəsmə, bu il çoxlu bar verəcək. Oxşar inanc yumurtlamayan toyuqlara da edilir. Göründüyü kimi, bu inanclarla qorxudularaq mal-qaranın bala verməsi, toyuqların yumurtlaması, ağacların isə bar verməsi tələb olunur. Bu inamlar "baltakəsmə", "bıçaqkəsmə", "qorxutma" adlanır.

Naxçıvanda Xıdır Nəbi bayramında nişanlı qızlara və təzə gəlin köçənlərə pay aparmaq adəti də var. Oğlan evindən nişanlı qızlara, ata evindən isə təzə gəlinlərə Xıdır xonçası aparmaq ənənəsi geniş yayılmışdır. Xıdır xonçasının yanında yundan toxunulmuş isti qış geyimləri qoyulur. Xıdır Nəbi xonçasından əlavə şirniyyat və meyvə xonçaları da pay aparılır.

Xıdır Nəbi bayramı ərəfəsində doğulan oğlan uşaqlarına Xıdır, Nəbi, İlyas, Xızır kimi adların qoyulması da geniş yayılıb. Bu adlar verilən uşağın çətinlik çəkməyəcəyinə, darda qalmayacağına inanılır.

*Qədim diyarımızın adət-ənənələrinə sadiq insanları xalqımızın zəngin milli dəyərlərinə hər zaman həssaslıqla yanaşıb, digər bayramlar, mərasimlər kimi xeyirxahlıq, ruzi-bərəkət, əmin-amanlıq simvolu olan Xıdır Nəbi mərasimini də qoruyaraq əsrlərdən-əsrlərə, nəsillərdən-nəsillərə ötürüb. Bu gün də yurdumuzda qeyd olunan, zəngin mədəniyyətimizi, mənəvi dəyərlərimizi özündə birləşdirən Xıdır Nəbi bayramınız mübarək!*

✍ **Gülcamal TAHİROVA**

## Təlimin praktik fəaliyyətləri icra edilir



Əlahiddə Ümumqoşun Ordunun hərbi qulluqçuları qardaş Türkiyə Respublikasında keçirilən "Qış təlimi-2021"də praktik fəaliyyətləri icra edirlər.

Qış təlimində iştirak edən Əlahiddə Ümumqoşun Ordunun hərbi qulluqçuları antiterror əməliyyatları zamanı binalarda yaxın məsafədə döyüş elementlərini yerinə yetirirlər.

Hava desantı qruplarımız paraşütlərlə təyin olunmuş təlim rayonuna endirilir.

Çətin qış şərtlərində zirehli texnikaların ekipajları döyüş əməliyyatları zamanı tankların və piyadaların döyüş maşınlarının tətbiqi ilə müxtəlif manevrlər və atışlar həyata keçirirlər.



Hücum və yerdəyişmə edən qoşunlarımızın maneəsiz hərəkəti mühəndis bölmələri tərəfindən təmin edilir.

**Nəriman NƏCƏFOV**

## Əmək pensiyaları artırılıb

Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun mətbuat xidmətindən verilən məlumata görə, əmək pensiyasının sığorta hissəsinin məbləği 2020-ci il üzrə ortaaylıq nominal əməkhaqqının Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi tərəfindən müəyyən edilən illik artım tempinə uyğun olaraq 11,4 faiz indeksləşdirilərək artırılacaqdır. İndeksasiya vətəndaşların müraciəti olmadan muxtar respublika üzrə 46 min 500-ə yaxın əmək pensiyaçısına şamil ediləcək və artımların ödənilməsinin həyata keçirilməsinə fondun büdcəsindən hər ay orta hesabla 1 milyon 250 min manat əlavə vəsait yönəldiləcəkdir.

Həmçinin istehlak qiymətləri indeksinin illik səviyyəsinə uyğun olaraq muxtar respublika üzrə fərdi uçot sistemində qeydiyyatda olan 179 min 649 sığortaolunanın fərdi hesabının sığorta hissəsində toplanmış pensiya kapitalı məbləğləri də yanvarın 1-dən indeksləşdirilməklə 2,8 faiz artırılıb.

Sərəncamın operativ icra edilməsi məqsədilə Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun yerli orqanları tərəfindən indeksləşmə qısa müddət ərzində yekunlaşdırılaraq bütün növ əmək pensiyaları üzrə hesablanmış artımlar yanvar ayının artımları da daxil olmaqla, fevral ayının pensiyası ilə birgə veriləcək.

Hərbi qulluqçular və xüsusi rütbəli şəxslər, dövlət qulluqçuları, Mərkəzi Seçki Komissiyasının üzvü, Hesablama Palatasının üzvü, deputat və digər bu kateqoriyalardan olan şəxslər kimi pensiyaya çıxmış əmək pensiyaçılarının pensiyalarına bu artım şamil olunmayacaq.

Qeyd edək ki, ölkə başçısı "Əmək pensiyalarının indeksləşdirilməsi haqqında" 2021-ci il 5 fevral tarixdə Sərəncam imzalayıb.

## Özünüməşğulluq proqramı uğurla icra olunur



"2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın icrasına uyğun olaraq yanvar ayında muxtar respublika üzrə, ümumilikdə, 27 sosial qayğıya ehtiyacı olan ailə müəyyənləşdirilib və 16 nəfərin hər birinə 2 baş iribuynuzlu, 7 nəfərin hər birinə 20 baş xırdabuynuzlu mal-qara, 1 nəfərə döşəmə hamarlayan dəzgah və 3 nəfərə isə mini yerşumlayan aqreqat verilib. Ötən ay, özünüməşğulluğu təmin edilmiş şəxslərdən 3 nəfəri gənc, 1 nəfəri şəhid ailəsi üzvü olub.

Bu münasibətlə keçirilən tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Nicat Babayev muxtar respublikada sosial qayğıya ehtiyacı olan ailələrə göstərilən dövlət qayğısı, onların məşğulluğunun təmin olunması istiqamətində həyata keçirilən tədbirlər barədə danışıb.

Məlumat üçün bildirək ki, verilmiş aktivlərdən səmərəli şəkildə istifadə olunmasının stimullaşdırılması məqsədilə ötən dövr ərzində təsərrüfatların nümunəvi şəkildə inkişaf etdirən Şərur rayon Çomaxtur kənd sakini Rüfət Əliyevə arpa-buğda qıran aqreqat verilib.

**Xəbərlər şöbəsi**

## *"Ulu yurdum – Naxçıvanım"* mövzusunda inşa yazı müsabiqəsi keçirilib



Naxçıvan Muxtar Respublikasının yaradılmasının 97-ci ildönümü ilə əlaqədar muxtar respublikanın ümumtəhsil məktəblərinin şagirdləri arasında "Ulu yurdum – Naxçıvanım" mövzusunda inşa yazı müsabiqəsi keçirilib.

Müsabiqədə muxtar respublikanın ümumtəhsil məktəblərinin IX-XI siniflərində təhsil alan 34 şagird iştirak edib. İnşa yazılar münsiflər heyəti tərəfindən yoxlanılaraq qiymətləndirilib. Nəticələrə uyğun olaraq şagirdlərdən Rübab Əliyeva I, İsa Abdullayev və Nigar Babayeva II, Səma Quliyeva III, Nəzrin Əliyarova və Günay Abbasova isə həvəsləndirici yerə layiq görülüblər.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

### *İtmişdir*

Şərur şəhər B.Kəngərli adına Uşaq İncəsənət Məktəbi tərəfindən Əliyev Mehdi Fərəməz oğlunun adına verilmiş 019272 nömrəli şəhadətnamə itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, Əliabad qəsəbəsi 17/34A ünvanında Rəhimova İsmət İsmayıl qızının adına olan torpaq sahəsinin AA-003972 nömrəli plan və ölçüsü itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 125